# BEŞİNCİ BÖLMƏ

# HÜQUQ VƏ QANUN

## X fəsil

## QANUNVERİCİLİK SİSTEMİ

# Maddə 147. **AR-ın Konstitusiyasının hüquqi qüvvəsi**

- **AR-ın Konstitusiyası AR-da ən yüksək hüquqi qüvvəyə malikdir.**
- **AR-ın Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir.**
- **AR-ın Konstitusiyası AR-ın qanunvericilik sisteminin əsasıdır.**

# Maddə 148. **AR-ın qanunvericilik sisteminə daxil olan aktlar**

**Qanunvericilik sistemi aşağıdakı normativ hüquqi aktlardan ibarətdir:**

**1) Konstitusiya;**

**2) referendumla qəbul edilmiş aktlar;**

**3) qanunlar;**

**4) fərmanlar;**

**5) AR Nazirlər Kabinetinin qərarları;**

**6) mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları.**

- **AR-ın tərəfdar çıxdığı *beynəlxalq müqavilələr AR-ın qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.***
- **NMR-da həm də NMR-ın Konstitusiyası və qanunları, NMR Nazirlər Kabinetinin qərarları hüquqi qüvvəyə malikdir.**
- **NMR-ın qanunvericilik sistemi AR-ın qanunvericilik sisteminə uyğun olmalıdır.**
- **Öz səlahiyyətləri daxilində yerli icra hakimiyyəti orqanları qanunvericilik sisteminə daxil olan aktlara zidd gəlməyən normativ xarakterli aktlar qəbul edə bilərlər.**

# Maddə 149. **Normativ hüquqi aktlar**

- **Normativ hüquqi aktlar *hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə)* əsaslanmalıdır.**
- **Referendumla qəbul olunmuş aktlar yalnız dərc edildikdə onların tətbiqi və icrası *vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.***
- **Qanunlar Konstitusiyaya zidd olmamalıdır. Yalnız dərc edilmiş qanunların tətbiqi və icrası *bütün vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.***
- **AR Prezidentinin fərmanları AR-ın Konstitusiyasına və qanunlarına zidd olmamalıdır. Yalnız dərc edilmiş fərmanların tətbiqi və icrası *bütün vətəndaşlar, icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.***
- **AR Nazirlər Kabinetinin qərarları AR-ın Konstitusiyasına, qanunlarına və AR Prezidentinin fərmanlarına zidd olmamalıdır. AR Nazirlər Kabinetinin qərarları yalnız dərc edildikdə onların tətbiqi və icrası *vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.***
- **MİHO-nun aktları AR-ın Konstitusiyasına, qanunlarına, AR Prezidentinin fərmanlarına və AR Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.**
- **Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir.**
- **Normativ hüquqi aktlar dərc edilməlidir. Heç kəs dərc edilməyən normativ hüquqi aktın icrasına (ona riayət olunmasına) məcbur edilə bilməz və belə aktın icra olunmamasına (ona riayət olunmamasına) görə məsuliyyətə cəlb edilə bilməz. Normativ hüquqi aktların dərc edilməsi qaydası Konstitusiya qanunu ilə müəyyən edilir.**

# Maddə 150. **Bələdiyyə aktları**

- **Bələdiyyələrin qəbul etdikləri aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalı, AR-ın Konstitusiyasına, qanunlarına, AR Prezidentinin fərmanlarına, AR Nazirlər Kabinetinin qərarlarına (NMR-da isə həm də NMR-ın Konstitusiyasına, qanunlarına, NMR Nazirlər Kabinetinin qərarlarına) zidd olmamalıdır.**

- **Bələdiyyələrin qəbul etdiyi aktın icrası onun ərazisində yaşayan vətəndaşlar və onun ərazisində yerləşən hüquqi şəxslər üçün məcburidir.**

# Maddə 151. **Beynəlxalq aktların hüquqi qüvvəsi**

**AR-ın qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar (AR-ın *Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla*) AR-ın tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.**